# İSGƏNDƏROV ƏLABBAS QARA OĞLU



Əlabbas İsgəndərov 25 iyul 1958-ci ildə Ağdam rayonunun Kürdlər kəndində doğulmuşdur. Orta məktəbi doğulduğu kənddə bitirmişdir. Hərbi xidməti başa vurduqdan sonra isə kəndlərinə qayıdaraq təsərrüfatla məşğul olmuşdur. Zəhmətkeş olduğuna görə o, icra kollektivinə başçı seçilmişdir. 1991-ci ilin noyabr ayında Ağdamda özünümüdafiə dəstələri yaradılarkən ilk üzv yazılanlardan biri də Əlabbas olmuşdur. 1992-ci ildə mühasirə şəraitində qalan Umudlu kəndinin əhalisi hərbi vertolyotların köməyi ilə boşaldılarkən məhz Əlabbasın qəhrəmanlığı sayəsində 40-dək döyüşçünün həyatı xilas edilmişdir. 4 mart 1992-ci ildə Qazançı kəndi uğrunda gedən döyüşlərdə Əlabbas qəhrəmancasına həlak olmuşdur. Ağdamdakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 13 avqust 1992-ci il tarixli 135 saylı Fərmanı ilə İsgəndərov Əlabbas Qara oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.